# AVTOMOBİL SÜRÜCÜSÜ (BC VƏ YA C KATEQORİYALI) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Xidmət edilən avtomobillərin, mexanizm və cihazlarının təyinatını, quruluşunu, işləmə prinsipini, avtomobillərin yol hərəkəti və texniki istismarı qaydasını, hərəkətin təhlükəsizliyinin əsaslarını, avtomobilin istismarı prosesində üzə çıxan nasazlıqların əlamətlərini, səbəblərini və təhlükəli nəticələrini, onların aşkar edilib düzəldilməsi üsulları
2. Avtomobili sürdükdə onun təhlükəsizliyinə təsir edən amilləri, yol-nəqliyyat hadisələrinin qarşısının alınması yollarını (imkanlarını)
3. Yol-nəqliyyat hadisələri zamanı sərnişinlərin təcili surətdə avtomobillərdən boşaldılması
4. Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə qayda və normaları

**1. Paylayıcı valın zəncir ötürməsində artıq səslərin olmasının əsas səbəbləri nədir?**
A) Zəncirin artıq dərəcədə dartılmış olması
B) Zəncirin yağlı olması
C) Mühərrik yağının yeni olması
D) Zəncirin oynaq bəndlərinin yeyilməsi və uzanması
E) Mühərrikin soyutma mayesinin yeni olması

**2. Yükün çəkisi daşıyıcıda və ya sürücüdə şübhə doğurduqda, o nə etməlidir?**
A) Müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, daşımadan imtina etməlidir
B) Yalnız anbar təsərrüfatı tərəfindən təqdim edilmiş sənədlər əsas götütrülür
C) Sürcü və yükgöndərn arasında  şifahi raziliqla problem həll oluna bilər
D) Sifarişçidən daşınan yükün çəkisinin əlavə yoxlanılmasını tələb edə bilər
E) Yükün faktiki kütləsi əmtəə - nəqliyyat qaiməsindən 3 tondan az olduqda daşınma müqaviləsi sözsüz həyata keçirilməlidir

**3. İşə başlamamışdan qabaq avtomobildə yağın,soyuducu mayenin normada olmasını  kim yoxlamalıdır?**
A) Sahə rəisi
B) Təmir üzrə mexanik
C) Sürücü
D) Dəstə rəisi
E) Təmir üzrə çilingər

**4. Yükləmə və daşıma üçün lazım olan dayaqları, kəmərləri, məftilləri, digər qurğuları və yardımçı materialları təqdim edilməsi, quraşdırması və çıxarilması müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, kim tərəfindən yerinə yetirilməlidir?**
A) Yükgöndərən (yükalan)
B) Daşıyıcı
C) Ekspediter şirkəti
D) Sürücü
E) Anbar xidməti

**5. Daşıyıcı, hansı hallarda  yüklərin örtülməsi və bağlanması üçün brezent,  iplər və digər materiallar təqdim edir?**
A) Daşınma müqaviləsində  nəzərdə tutulduqda
B) Bütün hallarda
C) Xüsusi yüklərin daşınması zamanı
D) Qum, çinqil daşınması zamanı
E) Sürücünün istəyindən asılı olaraq

Nümunə

**6. Avtomobilin istismarı zamanı benzinlı işləyən mühərrik qızır: bunun əsas səbəbi hansı ola bilər?**
A) Alışdırmanın qabaqlama bucağı erkəndır
B) Soyutma sistemində tosol əvəzinə su işlədilir
C) Forsunkalar nasazdır
D) ABS – imtina edən halda
E) Ətraf mühütün hərarəti $+30^0$ C temperaturdan yüksək olduqda

**7. Porşenin gedişi nə deməkdir?**
A) Yuxarı ölü nöqtə və aşağı ölü nöqtə arasındakı məsafənin yarısı
B) Dirsəkli valın radiusunun dörd misli
C) Dirsəkli valın radiusu
D) Yuxarı ölü nöqtə və aşağı ölü nöqtə arasındakı məsafə
E) Dirsəkli valın radiusu porşenin gedişinin iki mislinə bərabərdir

NÜMUNƏ